# Paytaxtlar Paytaxtı Qəbələ

Azərbaycanın "İdman paytaxtı"nın seçimi ilk dəfə 14 sentyabr 2023-cü il Azarbaycan Respublikasının Gənclər və İdman Nazirliyinin kollegiyasının qərarı ilə təsdiq edilib.

Gənclər və İdman Nazirliyi seçimi elan etdikdən sonra namizədlərin sifarişi Əsasnamədəki meyarlara uyğun qaydada nazirliyin İdman şöbəsinə təqdim edilir. Daha sonra təşkil olunan toplantıda "İdman paytaxt"larına namizəd regionların nümayəndələri növbəli şəkildə öz təqdimatları ilə çıxış edirlər. Təqdimatlar bitdikdən sonra Kollegiya üzvlərinin müzakirəsi keçirilir və səsvermə yolu ilə qalib seçilir.




Qeyd edək ki, "İdman paytaxtı"nın seçimində məqsəd regionlarda idmana olan marağın artırılması və inkişaf etdirilməsi, sağlam həyat tərzinin təbliğidir.

2023-cü il dekabrın 7-də Gənclər və İdman Nazirliyi Kollegiya iclasında 2024 - 2025-ci illər üçün idman paytaxtlarının və 2025-ci il üçün gənclər paytaxtının seçilməsi məsələləri müzakirə edilib.

Dövlət qurumlarının əməkdaşları arasında gələn il keçiriləcək idman yarışlarının planı müzakirə edilərək qəbul olunub

Namizəd şəhərlərin nümayəndələri təqdimatla çıxış edərək məlumat veriblər. Təqdimatlardan sonra elektron səsvermə nəticəsində Quba 2024-cü il, Qəbələ isə 2025-ci il üçün "İdman Paytaxtı" seçiliblər. Kollegiyada həmçinin Sumqayıt şəhəri 2025-ci il üçün “Gənclər Paytaxtı” seçilib.

16 yanvar 2025-ci il tarixdə Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin və Qəbələ Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə “Qəbələ - İdman Paytaxtı 2025”-in açılış mərasimi keçirilmişdir. Tədbir iştirakçıları öncə Azərbaycan dövlətinin memarı və qurucusu, ulu öndər Heydər Əliyevin abidəsini ziyarət etmiş, önünə gül dəstələri düzmüşlər.

Sonra Qəbələ Olimpiya İdman Kompleksində təşkil olunan tədbirdə Azərbaycan Dövlət Himni səslənmiş, ümummilli lider Heydər Əliyevin və ərazi bütövlüyümüzün bərpası uğrunda canlarını fəda etmiş şəhidlərin, Bakı-Qrozni reysini yerinə yetirən Azərbaycan Hava Yolları QSC-yə məxsus “Embraer 190” tipli sərnişin təyyarəsinin qəzaya uğraması nəticəsində həlak olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir. Qəbələ Olimpiya İdman Kompleksində təşkil olunan tədbir müxtəlif idman növləri üzrə federasiyaların üzvlərinin paradı ilə başlayıb. Oğuz, Zaqatala, Qax, Şəki, Qəbələ idmançıları səhnəyə dəvət olunublar.

Quba Rayon İcra Hakimiyyəti başçısının müavini Səidə Abbasova çıxışında 2024-cü il üçün Azərbaycanın “İdman paytaxtı” seçilmiş Qubanın il ərzində gördüyü işlərdən, əldə etdiyi nailiyyətlərdən bəhs edərək bildirmişdir ki, "Qubada il ərzində 29 turnir, 41 kütləvi idman tədbiri yüksək səviyyədə keçirilib. Bu il həmçinin, futbol və basketbol komandalarımız yaradılıb. Eləcə də idmanla məşğul olanların sayı 8 mindən 17 minə çatıb”. Səidə Abbasova Qəbələnin də bu şərəfli işi layiqincə yerinə yetirəcəyinə əminliyini bildirmişdir. Tədbirdə çıxış edən Qəbələ Rayon İcra Hakimiyyəti başçısının müavini Ətayə Osmanova ümummilli lider Heydər Əliyev tərəfindən başlanılan gənclər strategiyasının bu gün ölkə Prezidenti İlham Əliyev tərəfindən çox böyük uğurla davam etdirildiyini, Qəbələnin bu gün beynəlxalq miqyaslı tədbirlərə - dövlət başçılarının iştirakı ilə keçirilən zirvə toplantılarına, görüşlərə, sammit və forumlara, beynəlxalq idman yarışlarına ev sahibliyi etdiyini diqqətə çatdıraraq, Qəbələnin həm də 2025-ci ildə MDB-də “Gənclər Paytaxtı” seçildiyini qeyd edərək bütün qəbələliləri, xüsusilə gəncləri bu münasibətlə təbrik etmişdir. Ətayə Osmanova qeyd etmişdir ki, “bu tədbir Qəbələ üçün əlamətdar olacaq: "Əslində, bu cür etimad ilk dəfə deyil. Qəbələ bu vaxta qədər bir sıra yerli və beynəlxalq tədbirlərə uğurla ev sahibliyi edib. Hesab edirəm ki, idman paytaxtı seçilən Qəbələ üçün bu il yaddaqalan olacaq. Yeni idmançılar yetişəcək, nəticədə bu il Azərbaycan idmanı daha böyük uğurlarla zəngin olacaq".



Gənclər və İdman naziri Fərid Qayıbov Qəbələdən olan idmançıların çoxluq təşkil etdiyini, onların gələcəkdə Azərbaycanı beynəlxalq arenada uğurla təmsil edəcəklərinə inandığını demiş, “İdman paytaxtı” çərçivəsində il ərzində Qəbələ şəhərində bir çox yarış və tədbirlərin keçiriləcəyini diqqətə çatdırmış, görüləcək işlərin çox olduğunu, lakin Qəbələnin bu missiyanı uğurla yerinə yetirəcəyini, yaxşı nəticələr əldə olunacağını söyləmişdir. Sonra nazir idman paytaxtının rəmzi açarını Qəbələ rayonunun nümayəndəsi Ətayə Osmanovaya təqdim etmişdir. Daha sonra “Qəbələ - İdman Paytaxtı 2025”-in maskotu “Marşal” ictimaiyyətə təqdim olunmuşdur. 2024-cü ilin idman səfirləri seçilən bədii gimnastika üzrə millinin keçmiş üzvü Aliyə Paşayeva, veteran futbolçu İlqar Qurbanov, sabiq cüdoçu Orxan Səfərov və milli idman növləri üzrə məşqçi Xəyyam Orucov Azərbaycan bayrağı altında çıxış edən bütün idmançılara uğurlar və yeni-yeni qələbələr arzulamışlar.



Sonra Fərid Qayıbov idman paytaxtının rəmzi açarını Qəbələ rayonu İcra Hakimiyyətinin başçısının müavini Ətayə Osmanovaya təhvil verib. Daha sonra “Qəbələ - İdman Paytaxtı 2025”in talismanı “Marşal” ictimaiyyətə təqdim olunub.

2024-cü ilin idman səfirləri Aliyə Paşayeva, İlqar Qurbanov, Orxan Səfərov və Xəyyam Orucov bütün idmançılara uğurlar və yeni qələbələr arzulayıblar.

Qəbələ Olimpiya İdman Kompleksində təşkil olunan tədbir müxtəlif idman növləri üzrə federasiyaların üzvlərinin paradı ilə başlayıb.



2024-cü ilin idman səfirləri seçilən bədii gimnastika üzrə millinin keçmiş üzvü Aliyə Paşayeva, veteran futbolçu İlqar Qurbanov, sabiq cüdoçu Orxan Səfərov və milli idman növləri üzrə məşqçi Xəyyam Orucov da çıxış ediblər. Onlar Azərbaycan bayrağı altında çıxış edən bütün idmançılara uğurlar və yeni-yeni qələbələr arzulayıblar.

Xatırladaq ki, bu il yanvarın 19-da keçirilmiş Kollegiya iclasında Lənkəran şəhəri 2024-cü ilin “Gənclər Paytaxtı” seçilib.




Müxtəlif idman növlərini təmsil edən atletlər musiqi sədaları altında məharətlərini nümayiş etdiriblər. Qəbələ və başqa rayonların idmançılarının uğurlarından ibarət kiçik video-çarx təqdim olunub.

“Qəbələ 2025 İdman Paytaxtı“ loqosunun müəllifi Aynurə Qurbanova və “Qəbələ İdmanda Qələbə” şüarının müəllifi Fərid Əliyev diplom mükafatı ilə təltif olunublar.

Aynurə Qurbanova Bakı Avrasiya Universitetinin sosial iş fakültəsinin 4-cü kurs tələbəsidir. O, həm də peşəkar loqo dizaynı ilə məşğul olur. A. Qurbanova Gənclər və İdman Nazirliyinin təşkil etdiyi loqo müsabiqəsinin də qalibidir.

Yaratdığı bu şüar vasitəsilə Aynurə insan həyatı üçün ən böyük sərvətlərdən biri olan sağlamlığın insanın öz əlində olduğunu göstərmək istəyib:

- Əbəs yerə deyilməyib ki, sağlam bədəndə sağlam ruh olar. Hər kəs sağlamlığına zərər yetirən amillərdən uzaq durmalı və ondan qorunmaq üçün, bir sözlə sağlam yaşamaq üçün müntəzəm olaraq idmanla məşğul olmalıdır. Çünki, idman sağlamlığın əsasıdır. Loqo haqqında isə onu deyə bilərəm ki, burada yaşıl rəngdən istifadə etdim. Bu rəng insanın beynini sakitləşdirir, ruhunu yeniləyir, həyatına yeni nəfəs və təravət bəxş edir. Yaşıl rəng həm də sağlamlığın rəngidir. Yaradıcılığı artıran bu rəng insana güvən, motivasiya bəxş edir. Hesab edirəm ki, idman paytaxtı seçilən Qəbələ üçün bu il yaddaqalan olacaq. Yeni idmançılar yetişəcək, nəticədə Azərbaycan idmanı daha böyük uğurlarla zəngin olacaq.

Daha sonra müxtəlif idman növləri üzrə federasiyaların üzvlərinin paradı təqdim edilmişdir.

Açılış bədii hissə ilə davam etmiş, müxtəlif idman növlərini təmsil edən atletlər musiqi sədaları altında məharətlərini nümayiş etmişlər. Tədbir konsert proqramı ilə yekunlaşmışdır.

**Azad MƏMMƏDOV,**
**“Qəbələ”**